

İQTİSADİ İSLAHATLARIN TƏHLİLİ VƏ
KOMMUNİKASİYA MƏRKƏZİ

# İXRAC İCMALI

Sentyabr 2018

iqtisadiislahat.org
info@ereforms.org

**AZEXPORT.AZ**
**Made in Azerbaijan**

# "SON 15 İL ƏRZİNDƏ İQTİSADİ BAXIMDAN AZƏRBAYCAN QƏDƏR SÜRƏTLƏ İNKİŞAF EDƏN İKİNCİ ÖLKƏ OLMAMIŞDIR"

Azərbaycan Respublikasının Prezidenti
cənab İLHAM ƏLİYEVİN
2018-ci il 21 sentyabr tarixində Milli Məclisdə
Azərbaycan parlamentinin 100 illiyi münasibətilə keçirilən
təntənəli iclasdakı nitqindən



"Bir daha demək istəyirəm ki, Azərbaycan beynəlxalq məsələlərlə bağlı çox uğurlu siyasət aparır, qonşu ölkələrlə əlaqələrimiz ən yüksək səviyyədədir. Azərbaycan İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində çox böyük hörmətə layiqdir. Avropa İttifaqının üzvü olan 9 ölkə ilə bizim strateji tərəfdaşlıq haqqında sənədimiz var və bu il Tərəfdaşlıq Prioritetləri sənədi imzalanıb.

Bax, budur bizim uğurlu xarici siyasətimiz ki, bu gün daxili inkişafımıza da müsbət təsir göstərir. O ki qaldı  iqtisadi sahəyə, son 15 il ərzində iqtisadi baxımdan Azərbaycan qədər sürətlə inkişaf edən ikinci ölkə olmamışdır. İqtisadiyyat 3,2 dəfə artmışdır və bu artım bu gün davam edir. Təsadüfi deyil ki, cəmi 26 yaşı olan ölkəmiz Davos Dünya İqtisadi Forumunun iqtisadiyyatların rəqabətqabiliyyətlilik hesabatına görə, dünya miqyasında 35-ci yerdədir. Təsəvvür edin, dünyada 200-dən çox ölkə var. Azərbaycan 35-ci yerdədir. Rəqabətqabiliyyətliliyin hesablanması bütün sahələri əhatə edir, təkcə enerji resurslarını yox. Yenə də Davos Forumunun inkişaf edən ölkələr arasında inklüziv inkişaf indeksi üzrə hesablamalarına görə, Azərbaycan 3-cü yerdədir. Azərbaycan infrastrukturun səviyyəsinə görə, dünya miqyasında 26-cı yerdədir. Bütün bunları biz yaratmışıq, yorulmaz fəaliyyət nəticəsində, xalq-iqtidar birliyi sayəsində. Ona görə bizim iqtisadi inkişafla bağlı fikirlərimiz çox ümidvericidir və çox müsbətdir."

# MÜNDƏRİCAT


Qeyri-neft sektoru üzrə ixraca dair məlumat ____ səh. 3

Qeyri-neft sektoru üzrə əsas ixracatçı subyektlərin reytinqi ____ səh. 11

Azexport.az portalına 2018-ci ilin yanvar-avqust aylarında 367 milyon ABŞ dolları məbləğində ixrac sifarişi daxil olmuşdur ____ səh. 17

Sərbəst satış sertifikatı almaq üçün edilən müraciətlərin sayı artmışdır ____ səh. 21

“Bir Pəncərə” İxraca Dəstək Mərkəzi ixracatçıların işini asanlaşdırmışdır ____ səh. 22

Azərbaycan məhsulları “Worldfood Moscow 2018” Sərgisində maraqla qarşılanmışdır ____ səh. 25

1

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ İXRACA DAİR MƏLUMAT

2018-ci ilin **YANVAR-AVQUST AYLARINDA** qeyri-neft sektoru üzrə **1** milyard **94** milyon ABŞ dolları dəyərində mal **İXRAC OLUNMUŞDUR**

**ÖTƏN İLİN** müvafiq dövrü ilə müqayisədə qeyri-neft sektoru üzrə ixrac **131** milyon ABŞ dolları və ya **14%** **ARTMIŞDIR**

Dövlət Gömrük Komitəsinin məlumatına əsasən 2018-ci ilin yanvar-avqust ayları ərzində Azərbaycan Respublikasının ixracı **12,9 milyard** ABŞ dolları təşkil etmişdir. Bu müddətdə Azərbaycan Respublikasında qeyri-neft sektoru üzrə ixracda dinamik artım müşahidə olunmuş və cari ilin 8 ayı ərzində qeyri-neft sektoru üzrə ixrac **1 milyard 94 milyon** ABŞ dolları təşkil etmişdir. 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 2018-ci ilin yanvar-avqust ayları ərzində qeyri-neft sektoru üzrə ixrac **131 milyon** ABŞ dolları və ya **14 faiz** artmışdır. Cari ilin yanvar-avqust ayları ərzində Rusiyaya 375 milyon, Türkiyəyə 249,8 milyon, İsveçrəyə 92 milyon, Gürcüstana 88,5 milyon və Çinə 32 milyon ABŞ dolları dəyərində qeyri-neft sektoruna aid mal ixrac olunmuşdur.

Ötən ilin müvafiq dövrü ilə müqayisədə 2018-ci ilin 8 ayı ərzində Rusiyaya qeyri-neft ixracı 11 faiz, Türkiyəyə 20 faiz, İsveçrəyə 10 faiz, Çinə 75 faiz artmış, Gürcüstana isə 2,6 faiz azalmışdır.

2018-ci ilin yanvar-avqust ayları ərzində ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısında pomidor 144,4 milyon ABŞ dolları ixrac dəyəri ilə liderliyini qorumuşdur. Bu siyahıda qızıl (sikkə kəsilməsində istifadə olunmayan, digər emal olunmamış formalarda - 81 milyon ABŞ dolları) ikinci və xüsusi kütləsi 0,94-dən az olan ilkin formalı polietilen (63 milyon ABŞ dolları) üçüncü olmuşdur.

Cari ilin yanvar-avqust aylarında elektrik enerjisi, pambıq lifi (daranmaya məruz qalmamış), emal olunmamış aşqarlanmamış alüminium, qabığı təmizlənmiş meşə fındığı, albalı və gilas, kartof və digər məhsullar da qeyri-neft ixracında önəmli paya sahib olmuşlar.

Ümumiyyətlə, 2018-ci ilin yanvar-avqust ayları ərzində meyvə-tərəvəz ixracı **316 milyon**, plastmassa və onlardan hazırlanan məmulatların ixracı **90 milyon**, alüminium və ondan hazırlanan məmulatların ixracı **91 milyon**, elektrik enerjisinin ixracı **60 milyon**, qara metallar və onlardan hazırlanan məmulatların ixracı **57 milyon**, pambıq lifi ixracı **58 milyon**, kimya sənayesi məhsullarının ixracı **41 milyon**, pambıq ipliyi ixracı **14 milyon** ABŞ dolları təşkil etmişdir.

Qeyd edək ki, 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 2018-ci ilin 8 ayında pambıq lifinin ixracı 2,2 dəfə, elektrik enerjisinin ixracı 64,6 faiz, pambıq ipliyinin ixracı 35 faiz, plastmassa və onlardan hazırlanan məmulatların ixracı 22 faiz, meyvə-tərəvəzin ixracı 17 faiz, alüminium və ondan hazırlanan məmulatların ixracı 14 faiz, qara metallar və onlardan hazırlanan məmulatların ixracı 1 faiz artmışdır.

Cari ilin avqust ayında isə qeyri-neft sektoru üzrə ixrac 125 milyon ABŞ dolları təşkil etmişdir. 2018-ci ilin avqust ayında qeyri-neft sektoruna aid ən çox mal ixrac edilən ölkələrin siyahısında ilk beşlikdə Türkiyə (34,5 milyon ABŞ dolları), Rusiya (22 milyon ABŞ dolları), İsveçrə (13,9 milyon ABŞ dolları), İrlandiya (10 milyon ABŞ dolları) və Gürcüstan (7,2 milyon ABŞ dolları) qərarlaşmışdır.

2018-ci ilin avqust ayında qeyri-neft sektoru üzrə ixracda qızıl (sikkə kəsilməsində istifadə olunmayan, digər emal olunmamış formalarda - 12,6 milyon ABŞ dolları) birinci, pambıq lifi (12,4 milyon ABŞ dolları) ikinci, emal olunmamış aşqarlanmamış alüminium (8,4 milyon ABŞ dolları) isə üçüncü olmuşdur.

Həmçinin 2018-ci ilin avqust ayında xüsusi kütləsi 0,94-dən az olan ilkin formalı polietilen, polimerləşmə nəticəsində əmələ gələn ilkin formalı digər maddələr, daş kömür qatranının yüksək temperaturlu qovulmanın digər yağları və məhsulları, şaftalı (nektarinlər daxil olmaqla), qabığı təmizlənmiş meşə fındığı, metanol (metil spirti) qeyri-neft sektoru üzrə ixracında önə çıxmışdır.

2018-ci ilin yanvar-avqust ayları ərzində ixrac olunan əsas malların siyahısı və əsas ixrac ölkələri barədə daha ətraflı məlumat təqdim olunan infoqrafikalarda verilmişdir.

MADE IN AZERBAIJAN

# 2018-Cİ İLİN **YANVAR-AVQUST AYLARINDA** QEYRİ-NEFT SEKTORU ÜZRƏ **5 ƏSAS İXRAC ÖLKƏSİ**
**(2017-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)**



# 2018-Cİ İLİN **AVQUST AYINDA** QEYRİ-NEFT SEKTORU ÜZRƏ **5 ƏSAS İXRAC ÖLKƏSİ**
**(2017-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)**

2018 İXRAC İCMALI SENTYABR



## 2018-Cİ İLİN **YANVAR-AVQUST AYLARINDA** 2017-Cİ İLİN MÜVAFİQ DÖVRÜNƏ NİSBƏTƏN QEYRİ-NEFT SEKTORUNA AİD BƏZİ MALLARIN **İXRACININ ARTIMI**

**(milyon ABŞ dolları ilə)**



# AZƏRBAYCAN RESPUBLİKASINDAN İXRAC EDİLƏN BƏZİ MALLARIN **DÜNYA BAZARINDA QİYMƏTİ (ABŞ dolları ilə)**

Mənbə: Dünya Bankı

## ALÜMİNİUM (1 TON)

2017-ci ilin avqust ayı - **2030**

2018-ci ilin avqust ayı - **2051**



## QIZIL (1 UNSİYA)

2017-ci ilin avqust ayı - **1283**

2018-ci ilin avqust ayı - **1202**



## ŞƏKƏR (1 TON)

2017-ci ilin avqust ayı - **320**

2018-ci ilin avqust ayı - **240**





## PAMBIQ LİFİ (1 TON)

2017-ci ilin avqust ayı - **1750**

2018-ci ilin avqust ayı - **2080**





## ÇAY (1 TON)

2017-ci ilin avqust ayı - **3260**

2018-ci ilin avqust ayı - **2810**

# 2018-Cİ İLİN **YANVAR-AVQUST AYLARINDA** İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI
## (2017-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

İXRAC İCMALI 2018 SENTYABR

| Mal | 2018 | 2017 |
|---|---|---|
| Pomidor | 144,4 | 128,1 |
| Qızıl | 81 | 67,4 |
| İlkin formalı polietilen | 63 | 57 |
| Elektrik enerjisi | 59,6 | 36,2 |
| Pambıq lifi *(mahlıc)* | 57,1 | 25,7 |
| Emal olunmamış aşqarlanmamış alüminium | 41,6 | 20,3 |
| Fındıq ləpəsi | 40,4 | 38,6 |
| Albalı və gilas | 38 | 23,2 |
| Kartof | 29,6 | 25,8 |
| Digər | 539 | 541 |

# 2018-Cİ İLİN **AVQUST AYINDA** İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI
**(2017-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)**

| | 2018 | 2017 |
|---|---|---|
| Qızıl | 12,6 | 8 |
| Pambıq lifi *(mahlıc)* | 12,4 | 0,5 |
| Emal olunmamış aşqarlanmamış alüminium | 8,4 | 3,8 |
| İlkin formalı polietilen | 5,7 | 2,6 |
| Polimerləşmə nəticəsində əmələ gələn ilkin formalı digər maddələr | 4,7 | 1,8 |
| Digər yağlar və məhsullar | 4 | 2,7 |
| Şaftalı | 3,9 | 2,9 |
| Fındıq ləpəsi | 3 | 4,7 |
| Metanol | 2,7 | 6,4 |
| Digər | 67,8 | 76,6 |

2

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ ƏSAS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ

## 2018-ci ilin **YANVAR-AVQUST AYLARINDA** qeyri-neft sektoru üzrə **ƏSAS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ**

"İxrac İcmalı" tərəfindən qeyri-neft sektoru üzrə 2018-ci ilin yanvar-avqust aylarında həyata keçirilən ixracla bağlı həm qeyri-dövlət, həm də dövlətə məxsus ixracatçı subyektlərin reytinqi tərtib edilmişdir.

2018-ci ilin yanvar-avqust ayları üzrə hazırlanan qeyri-dövlət ixracatçı subyeklərin reytinqində ilk onluqda aşağıdakı subyektlər təmsil olunurlar: "Azərbaycan İnterneyşnl Mayninq Kompani Limited Şirkəti"nin Azərbaycan Respublikasındakı nümayəndəliyi, "Kapitan Fruits" MMC, "MKT İstehsalat Kommersiya" MMC, "Baku Steel Company" MMC, "Qala meyvə-tərəvəz ixracat idxalat" MMC, "Food Export Şəmkir" MMC, "Azfruittrade" MMC, "Azərbaycan Şəkər İstehsalat Birliyi" MMC, "Sun Food" MMC, İskəndərov Sahib Səməd oğlu.

Qeyd edək ki, 2018-ci ilin yanvar-iyul ayları üzrə tərtib edilən reytinqlə müqayisədə hazırkı siyahıda "MKT İstehsalat Kommersiya" MMC-nin, "Azərbaycan Şəkər İstehsalat Birliyi" MMC-nin və "Sun Food" MMC-nin mövqeyini möhkəmləndirdiyini müşahidə etmək mümkündür.

Qeyri-neft sektoru üzrə ixrac əməliyyatlarında iştirak edən dövlətə məxsus şirkətlərin siyahısına isə ARDNŞ-nin "Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi" başçılıq edir. Daha sonra bu siyahıda aşağıdakı şirkətlər təmsil olunurlar: "Detal Alüminium" MMC, "Azərenerji" ASC, "Azərbaycan Hava Yolları" QSC, "Azergold" QSC, "SOCAR Methanol" MMC, "CTS-Agro" MMC, "Ərzaq Məhsullarının Tədarükü və Təchizatı" ASC, Naxçıvan MR Dövlət Energetika Xidməti, "Suraxanı Maşınqayırma Zavodu Törəmə" ASC.

Təqdim olunan infoqrafikalarda bu ixracatçıların reytinqi ilə bağlı məlumatla tanış ola bilərsiniz.



# 2018-Cİ İLİN YANVAR-AVQUST AYLARINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ QEYRİ-DÖVLƏT İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ (2017-ci ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)



# 2018-Cİ İLİN **YANVAR-AVQUST AYLARINDA** QEYRİ-NEFT SEKTORU ÜZRƏ **DÖVLƏTƏ MƏXSUS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ (2017-ci ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)**



# 2018-Cİ İLİN **YANVAR-AVQUST AYLARINDA "AZƏRKOSMOS"** ASC **15,3 MİLYON** ABŞ DOLLARI DƏYƏRİNDƏ XİDMƏT İXRAC ETMİŞDİR





2018-ci ilin yanvar-avqust aylarında "Azərkosmos" ASC tərəfindən dünyanın **22 ölkəsinə** xidmət (peyk telekommunikasiya xidmətləri və optik peyk xidmətləri) ixrac edilmişdir. "Azərkosmos" ASC-nin xidmət ixracından əldə etdiyi gəlir onun ümumi gəlirlərinin **86 faizini** təşkil etmişdir. 2018-ci ilin avqust ayında isə "Azərkosmos" ASC dünyanın 15 ölkəsinə **1,3 milyon** ABŞ dolları dəyəri xidmət ixrac etmişdir.

Qeyd edək ki, 2018-ci il sentyabrın 26-da Azərbaycanın üçüncü peyki olan **"Azerspace 2"** telekommunikasiya peyki uğurla orbitə buraxılmışdır. Ümumilikdə, dəyəri **190 milyon** ABŞ dolları olan "Azerspace-2" peykinin ölkə iqtisadiyyatına **400 milyon** ABŞ dolları gəlir gətirəcəyi proqnozlaşdırılır. Yəni qarşıdakı ayrlarda ölkəmizin peyk telekommunikasiya və optik peyk xidmətləri ixracında artım gözlənilir.

2018-ci ilin yanvar-avqust aylarında "Azərkosmos" ASC-nin xidmət ixrac etdiyi **5 əsas ölkə** (ABŞ dolları ilə)





2018-ci ilin **YANVAR-AVQUST AYLARINDA**
Azərbaycana gələn xarici vətəndaşlar
**BANK KARTLARI VASİTƏSİ İLƏ**
**888** milyon manatlıq əməliyyat aparmışlar

**ÖTƏN İLİN** müvafiq dövrü ilə müqayisədə
xarici vətəndaşların **BANK KARTLARI VASİTƏSİ** ilə
apardıqları əməliyyatların dəyəri
**184** milyon manat və ya **26%** **ARTMIŞDIR**

2018-ci ilin yanvar-avqust ayları ərzində Azərbaycana dünyanın 193 ölkəsindən 1976,9 min və ya ötən ilin müvafiq dövrü ilə müqayisədə 8,5 faiz çox əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlmişdir. Dövlət Sərhəd Xidmətinin məlumatına əsasən gələnlərin 31,6 faizi Rusiya Federasiyası, 19,5 faizi Gürcüstan, 9,8 faizi Türkiyə, 9,4 faizi İran, 3,5 faizi Birləşmiş Ərəb Əmirlikləri, 2,6 faizi İraq, 2,0 faizi Ukrayna, 21,5 faizi digər ölkələrin vətəndaşları, 0,1 faizi isə vətəndaşlığı olmayan şəxslər olmuşdur. Əcnəbi və vətəndaşlığı olmayan şəxslərin 9,4 faizi yanvar, 8,4 faizi fevral, 14,0 faizi mart, 11,0 faizi aprel, 10,5 faizi may, 13,6 faizi iyun, 16,7 faizi iyul, 16,4 faizi isə avqust ayında ölkəyə gəlmişdir.

Cari ilin yanvar-avqust aylarında Körfəz ölkələrindən (Birləşmiş Ərəb Əmirlikləri və İran istisna olunmaqla) gələnlərin sayında daha çox artım müşahidə edilmişdir. Ümumilikdə, ölkəmizə gələnlərin demək olar ki, hər beş nəfərindən biri Körfəz ölkələrindən olmuşdur.

2018-ci ilin yanvar-avqust aylarında Avropa İttifaqına üzv ölkələrdən gələnlərin sayı 8,0 faiz artaraq 77,0 min nəfər, MDB ölkələrindən gələnlərin sayı 5,5 faiz artaraq 734,0 min nəfər olmuşdur.

Cari ilin avqust ayında ölkəmizə gələn xarici vətəndaşların bank kartları vasitəsi ilə xərcləmələrində isə ciddi artım müşahidə edilmişdir. Belə ki, 2018-ci ilin avqust ayında isə ölkəmizə gələn xarici vətəndaşların bank kartları vasitəsi ilə apardıqları əməliyyatlar **141 milyon** manat təşkil etmiş və ötən ilin avqust ayı ilə müqayisədə **39 faiz** artmışdır. Ümumilikdə isə 2018-ci ilin yanvar-avqust ayları ərzində Azərbaycana gələn xarici vətəndaşların bank kartları vasitəsi ilə apardıqları əməliyyatların dəyəri **888 milyon** manat təşkil etmişdir. 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 2018-ci ilin yanvar-avqust ayları ərzində Azərbaycana gələn xarici vətəndaşların bank kartları vasitəsi ilə apardıqları əməliyyatların dəyəri **184 milyon** manat və ya **26 faiz** artmışdır.

# AZƏRBAYCANA GƏLƏN XARİCİ VƏTƏNDAŞLARIN **BANK KARTLARI VASİTƏSİ İLƏ** APARDIQLARI ƏMƏLİYYATLAR **(milyon manatla)**



## 2016-cı il

Yanvar - **28,2**
Fevral - **36,7**
Mart - **40,6**
Aprel - **34,5**
May - **48,6**
İyun - **74,8**
İyul - **40,9**
Avqust - **52,5**

**CƏMİ - 356,8**

## 2017-ci il

Yanvar - **86,8**
Fevral - **72,5**
Mart - **91,1**
Aprel - **80,6**
May - **92,6**
İyun - **83,8**
İyul - **95,7**
Avqust - **100,8**

**CƏMİ - 703,9**

## 2018-ci il

Yanvar - **99,8**
Fevral - **91,1**
Mart - **105,8**
Aprel - **109,7**
May - **107,3**
İyun - **106,7**
İyul - **126,3**
Avqust - **141,0**

**CƏMİ - 887,7**



# 3

# AZEXPORT.AZ PORTALINA 2018-Cİ İLİN YANVAR-AVQUST AYLARINDA 367 MİLYON ABŞ DOLLARI MƏBLƏĞİNDƏ İXRAC SİFARİŞİ DAXİL OLMUŞDUR

Cari ilin **AVQUST AYINDA** Azexport.az portalına daxil olan **İXRAC SİFARİŞLƏRİNİN DƏYƏRİ**
**51,5** milyon ABŞ dolları təşkil etmişdir

Azexport.az portalına 2018-ci ilin avqust ayı ərzində **51,5 milyon** ABŞ dolları məbləğində ixrac sifarişləri daxil olmuşdur. Ümumilikdə isə 2018-ci ilin 8 ayında Azexport.az portalına daxil olan ixrac sifarişlərinin dəyəri **367 milyon** ABŞ dolları təşkil etmişdir. 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 2018-ci ilin yanvar-avqust aylarında Azexport.az portalına daxil olan ixrac sifarişləri dəyər baxımından **19 faiz** artmışdır.

2018-ci ilin 8 ayında portala daxil olan ixrac sifarişlərinin ilk beşliyində isə Rusiya (18,2 faiz), ABŞ (8,6 faiz), Türkiyə (7 faiz), İran (4,6 faiz) və İngiltərə (4,2 faiz) qərarlaşmışdır.

Daxil olan sifarişləri məhsullar üzrə təhlil etdikdə aydın olmuşdur ki, cari ilin avqust ayında ən çox ixrac sifarişi pambıq, fındıq ləpəsi, pambıq yağı, nar şirəsi, alma, çay, şərab, noxud, tütün, gübrələr, mühərrik yağı, un məmulatları, nar şərab, toyuq əti/file, kərpic və s. mallara daxil olmuşdur.

Məlumat üçün qeyd edək ki, 2017-ci ilin yanvar ayından 2018-ci ilin 31 avqust tarixinə kimi (20 ay ərzində) Azexport.az portalına dünyanın 103 ölkəsindən daxil olan ixrac sifarişlərinin dəyəri **842 milyon** ABŞ dolları təşkil etmişdir.

Azexport.az portalına daxil olan ixrac sifarişləri barədə daha dolğun məlumat isə təqdim olunan infoqrafikalarda verilmişdir.

## **AZEXPORT.AZ** PORTALINA
## DAXİL OLAN İXRAC SİFARİŞLƏRİNİN DƏYƏRİ **(ABŞ dolları ilə)**

2018 İXRAC İCMALI SENTYABR

**Son 20 ay ərzindəki sifarişlərin cəmi - 842 milyon ABŞ dolları**

AZEXPORT.AZ 2018

**2017-ci il ərzində**

cəmi - **475 milyon**

**2018-ci il üzrə**

YANVAR - **81,5 milyon**

FEVRAL - **37,6 milyon**

MART - **66,5 milyon**

APREL - **36,9 milyon**

MAY - **27,7 milyon**

İYUN - **34,2 milyon**

İYUL - **31,1 milyon**

AVQUST - **51,5 milyon**

cəmi - **367 milyon**



# 2018-Cİ İLİN **AVQUST AYINDA AZEXPORT.AZ** PORTALINDAN İXRAC SİFARİŞİ ALAN ƏSAS MALLAR

2018 İXRAC İCMALI SENTYABR

Pambıq



Fındıq



Pambıq yağı



Nar şirəsi



Alma



Çay



Şərab



Noxud



Tütün



Mineral gübrələr



Mühərrik yağı



Un məmulatları



Nar şərab



Toyuq əti/file



Konservləşdirilmiş ət



# 2018-Cİ İLİN YANVAR-AVQUST AYLARINDA AZEXPORT.AZ PORTALINA DAXİL OLAN ƏSAS İXRAC SİFARİŞLƏRİNİN ÖLKƏLƏR ÜZRƏ BÖLGÜSÜ

2018 İXRAC İCMALI SENTYABR



4

# SƏRBƏST SATIŞ SERTİFİKATI ALMAQ ÜÇÜN EDİLƏN MÜRACİƏTLƏRİN SAYI ARTMIŞDIR

2018-ci ilin 8 ayı ərzində İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi (İİTKM) tərəfindən ixracatçılara 200-ə yaxın sərbəst satış sertifikatı verilmişdir. İİTKM-nin nümayəndəsi Ayxan Qədəşovun verdiyi məlumata görə, artıq “Gazelli Group” MMC, “Apiaz MMC”, Teymur Əhmədov adına “Aznar” QSC, “Brightman” MMC və digər şirkətlərə bu sertifikat təqdim olunmuşdur. Hazırda "Azersun Holding" MMC başda olmaqla daha bir neçə şirkət sərbəst satış sertifikatı almaq üçün müraciət etmişdir. Müvafiq prosedurlar tamamlandıqdan sonra bu şirkətlərə də sertifikatlar təqdim olunacaqdır.

Məlumat üçün bildiririk ki, sərbəst satış sertifikatı “Azərbaycan Respublikasının diplomatik nümayəndəlikləri və konsulluqları vasitəsilə qeyri-rezidentlərə elektron imza sertifikatının verilməsi Qaydası”nın və www.azexport.az internet portalı haqqında Əsasnamə”nin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 12 sentyabr tarixli Fərmanına uyğun olaraq verilir. Sərbəst satış sertifikatı ixrac olunan malın Azərbaycan Respublikasında sərbəst dövriyyədə olduğunu, aidiyyəti dövlət orqanları və qurumları tərəfindən sertifikatlaşdırıldığını və standartlara cavab verdiyini təsdiqləyən sənəddir. Bu sertifikatın əldə olunması könüllü xarakter daşıyır və ixracatçıların müraciəti əsasında yalnız Azərbaycan Respublikasında istehsal olunan mallara verilir. İxracatçılar sərbəst satış sertifikatını elektron formada və ya kağız daşıyıcıda əldə edə bilərlər.



5

# "BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİ İXRACATÇILARIN İŞİNİ ASANLAŞDIRMIŞDIR

2018-ci ilin sentyabr ayı ərzində "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi tərəfindən ixracatçılara bir pəncərə prinsipi əsasında ixracla bağlı tələb olunan sənədlər verilmişdir. Azərbaycan sahibkarlarının 2018-ci ilin sentyabr ayında "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi vasitəsi ilə həyata keçirdikləri ixracın dəyəri **11,2 milyon** ABŞ dolları təşkil etmişdir. Ölkəmizdə fəaliyyət göstərən fiziki və hüquqi şəxslərə əsasən polad borular, polad armatur yayması, polad pəstah, qiymətli metal külçələr, oksigen sisterni, fındıq ləpəsi, meyvə, meyvə şirələri, arpa, biyan kökü, pomidor ştili, tütün, dondurulmuş ilbiz əti və qabıqları, qoyun bağırsağı, quzu əti, dağıstan turu, jurnallar və s. məhsulların ixracı üçün lazım olan müvafiq sənədlər təqdim edilmişdir. Sertifikat verilən məhsullar Türkiyə, Gürcüstan, Avstriya, Rusiya, Qazaxıstan, İran, Kanada, Almaniya, ABŞ,Türkmənistan, Qətər, Avstriya, Ukrayna, Litva, İsveçrə, Belçika, Kanada, Yeni Zellandiya, Çin, Qana, Malayziya, Özbəkistan, İtaliya, İsrail daxil olmaqla dünyanın müxtəlif ölkələrinə ixrac olunmuşdur.

Qeyd edək ki, 2018-ci ilin yanvar-sentyabr aylarında "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi vasitəsi ilə həyata keçirilən ixracın dəyəri **113,2 milyon** ABŞ dollarından çox olmuşdur.

Məlumat üçün bildiririk ki, 2018-ci ilin 1 iyul tarixindən Qida Təhlükəsizliyi Agentliyinin nümayəndələri də "Bir Pəncərə" İxraca Dəstək Mərkəzində fəaliyyətə başlamışlar. Sentyabr ayı ərzində sahibkarlar "Bir Pəncərə" İxraca Dəstək Mərkəzinə müraciət edərək həm də Qida Təhlükəsizliyi Agentliyində qeydiyyatdan keçmək üçün tələb olunan sənədlər barədə müvafiq məlumat almışlar. Beləliklə "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi həm ixracatçıların, həm də qida məhsulları istehsalçılarının işini asanlaşdırmışdır.



# 2018-Cİ İLİN **YANVAR - SENTYABR AYLARINDA "BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİ** VASİTƏSİLƏ HƏYATA KEÇİRİLƏN **İXRACIN STATİSTİKASI (milyon ABŞ dolları)**







2018-ci ilin yanvar - sentyabr aylarında "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi vasitəsilə ixrac edilən məhsulların ümumi qeyri-neft sektoru üzrə ixracda payı **10 faiz** təşkil etmişdir



# 2018-Cİ İLİN **SENTYABR AYINDA "BİR PƏNCƏRƏ"** İXRACA DƏSTƏK MƏRKƏZİNİN TƏQDİM ETDİYİ **SERTİFİKATLARIN ÖLKƏLƏR ÜZRƏ BÖLGÜSÜ**

TÜRKİYƏ
**17 %**

GÜRCÜSTAN
**16 %**

AVSTRİYA
**12 %**

RUSİYA
**9 %**

QAZAXISTAN
**6 %**




İRAN
**5%**

KANADA
**5 %**

ALMANİYA
**5 %**

ABŞ
**2 %**

DİGƏRLƏRİ
**33 %**

6

# AZƏRBAYCAN MƏHSULLARI "WORLDFOOD MOSCOW 2018" SƏRGİSİNDƏ MARAQLA QARŞILANMIŞDIR

2018-ci ilin 17-20 sentyabr tarixlərində Rusiya Federasiyasının paytaxtı Moskva şəhərində keçirilən "Worldfood Moscow 2018" Sərgisində 35 Azərbaycan şirkəti AZPROMO-nun təşkilatçılığı ilə "Made in Azerbaijan" vahid ölkə stendi ilə təmsil olunmuşdur.

Sərgidə Azərbaycan istehsalı olan qida, meyvə-tərəvəz, şərab və digər spirtli içkilər, fındıq və qurudulmuş meyvə, çay, konservləşdirilmiş məhsullar, qənnadı məmulatları xarici şirkətlər və sərgiyə gələnlər tərəfindən maraqla qarşılanmışdır. Sərgidə Azərbaycanın "Grow Group" şirkəti ilə Rusiyanın "O Key Group" şirkəti arasında pomidor ixracına dair müqavilə imzalanmışdır. Azərbaycanın "Zirə Foods" şirkəti isə Rusiyanın "Maqnit" supermarketlər şəbəkəsində həftəlik 100 ton pomidorun satışına dair razılıq əldə etmişdir. Bundan başqa, "Bakı Agropark" şirkəti "Ptyorçka", "Billa", "Prekryostok" mağazalar şəbəkəsində məhsulların satışına dair ilkin razılığa gəlmişdir. "Binə Aqro" şirkəti ilə Rusiyanın "Maqnit", "Ptyorçka" ticarət şəbəkələri və "Belaya Daça"(Horeca) şirkəti arasında Azərbaycan məhsulların satışına dair müqavilə imzalanmışdır. Bununla yanaşı, "Binə Aqro" şirkəti ilə Dağıstan şirkəti arasında istixana komplekslərinin tikintisinə dair razılıq əldə edilmişdir.

"Aqro-Azerinvest" şirkəti və Tacikistanın "STK Faraqis" şirkəti arasında şərab və digər spirtli içkilərin ixracına dair ilkin razılıq əldə olunmuşdur. Azərbaycanın "Mars-FK" şirkəti Rusiyanın "Billa", Moldovanın "Karpineks plyus", Latviyanın "Dzintars" ticarət şəbəkələrində nar məhsulunun satışına dair müqavilə imzalamışdır.







Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən "İxrac İcmalı" jurnalı 11 yanvar 2018-ci il tarixində N4160 nömrəsi ilə mətbu nəşrlərin reyestrinə daxil edilmişdir.

iqtisadiislahat.org
ereforms.org
ecoreform.az

/iqtisadiislahat

Bakı, Yasamal rayonu,
Landau küçəsi 16, AZ 1073
Tel.: (+ 994) 12 521 33 18
info@ereforms.org

